BAKI UNİVERSİTETİNİN XƏBƏRLƏRİ
№3 Sosial-siyasi elmlər seriyası 2011

UOT 349.3
UOT 364.3-3

# MÜASİR DÖVRDƏ SOSİAL TƏMİNAT HÜQUQUNUN HÜQUQ SİSTEMİNDƏ YERİNİN MÜƏYYƏN EDİLMƏSİNİN NƏZƏRİ ASPEKTLƏRİ

**F.M.ƏLİYEVA**
***Bakı Dövlət Universitetinin***
***farida-aliyeva00@rambler.ru***

*Məqalədə müasir dövrdə hüquq elmlərindən biri kimi sosial təminat hüququnun nəzəri aspektləri ətraflı araşdırılır. Sosial təminat hüquq elminin predmetini təşkil edən sosial hadisələrin dairəsi göstərilir, onun digər hüquq elmləri (konstitusiya hüququ, əmək hüququ, inzibati hüquq, maliyyə hüququ və s.) ilə oxşar və fərqli cəhətləri müəyyyən edilir. Həmçinin, sosial təminat hüququ elminin ümumi və xüsusi hissədən ibarət olan sistemi təhlil edilməklə bu sahə üzrə qanunvericiliyin məcəlləşdirilməsi zəruriliyi qeyd olunur.*

**Açar sözlər:** sosial təminat hüququnun predmeti, sosial hüquq, sosial sığorta stajı, məcburi dövlət sosial sığortası, ictimai münasibətlər dairəsi

Sosial təminat hüququ müstəqil hüquq sahəsi kimi cəmiyyətdə sosial müdafiəyə ehtiyacı olan şəxslərin sosial təminat sistemi üzrə maddi nemətlərlə təmin edilməsi üzrə münasibətləri tənzimləyir. Lakin sosial təminat sistemi olduqca mürəkkəb mexanizmə malik olan hüquqi təsisat olduğuna görə onun digər hüquq normaları ilə əlaqəsi təbii və zəruri haldır. Ona görə də, müstəqil hüquq sahəsi kimi sosial təminat hüququnun hüquq sistemində yerinin müəyyən edilməsi onun digər hüquq sahələri ilə oxşar və yaxın cəhətlərinin göstərilməsi baxımdan daha düzgün olardı. Hüquq ədəbiyatında göstərilir ki, oxşarlıq və yaxınlıq təcrübədə bu və ya digər faktiki münasibətlərin həqiqi hüquqi təbiətini aydınlaşdırmağı çətinləşdirir və bir sıra hallarda qanunun pozulmasına gətirib çıxarır. Hər bir sahənin predmetinə daxil olan ictimai münasibətlərin dairəsini və hüquqi tənzimetmə obyektindəki oxşarlıq və fərqlərin nədən ibarət olduğunu dəqiq aydınlaşdırmaq lazımdır (7, 27).

Bütövlükdə müstəqil hüquq sahəsi kimi sosial təminat hüququ haqqında təsəvvürlər hələ ötən əsrin 60-cı illərində formalaşsa da, indiyə qədər nə həmin hüquq sahəsi ilə tənzimlənən ictimai münasibətlərin dairəsi, nə də onun hüquq sistemində yeri ilə bağlı vahid yanaşma mövcud deyildir. Son illər bu sahənin obyektiv inkişafı predmetini hüququn digər sahələri ilə tənzim olunmayan

ictimai münasibətlər təşkil edən və hüququ müstəqil sahəsi olan sosial təminat hüququ barəsində formalaşmış baxışların yenidən nəzərdən keçirilməsi məsələsini aktuallaşdırır.

XX əsrin 1960-cı illərində hüququn müstəqil sahəsi kimi sosial təminat hüququnun mövcudluğunu əsaslandıran V.S.Andreyev onun predmetinə pensiya və vətəndaşların qocalığa və əmək qabiliyyətinin olmamasına görə təminatı üzrə, anaların və uşaqların təminatı üzrə, pulsuz tibbi yardımın göstərilməsi üzrə bir sıra digər münasibətləri, habelə onlarla sıx surətdə bağlı olan hüquqi faktların müəyyən edilməsi və mübahisələrin həlli üzrə prosessual münasibətləri aid edirdi (2, 29). O, bu münasibətləri fiziki şəxslərlə sosialist təşkilatları arasında yaranan, xüsusi əvəzsiz ekvivalentsiz xarakter daşıyan, ictimai istehlak fondlarının bir hissəsinin bölüşdürülməsi üzrə münasibətlər kimi xarakterizə edirdi (2, 187-188).

V.S.Andreyevlə yanaşı sonrakı illərdə müstəqil hüquq sahəsi kimi sosial təminat hüququnun nəzəri məsələləri ilə Y.İ.Astraxan, V.A.Açarkan, A.D.Zaykin, M.L.Zaxarov, T.V.İvankina, R.İ.İvanova, M.İ.Polupanov, E.Q.Tuçkova, V.Ş.Şayxatdinov və digər müəlliflər fəal surətdə məşğul olmuşlar. Hər kəsə məlum idi ki, sosial təminat hüququ sosial təminat üzrə xüsusi münasibətləri tənzimləyir, lakin həmin münasibətlərin tərkibinə nələr daxildir, onların dairəsi nə ilə məhdudlaşır – bu məsələlər həmişə mübahisəli olmuşdur.

Hüquq ədəbiyyatında sosial təminatla bağlı olaraq iki konsepsiya – dar və geniş konsepsiya formalaşmışdır. Dar konsepsiyanın nümayəndələri sosial təminat anlayışına ancaq pensiyanı, müavinəti və sosial xidməti aid etmişlər (8, 21). Onlar sosial təminata qocalıq və əmək qabiliyyətinin olmaması halında təminat üzrə münasibətləri şamil edirlər (4, 40). Digərləri hesab edir ki, sosial təminata «qocalıq, xəstəlik, əmək qabiliyyətinin tam və ya qismən itirilməsi halında vətəndaşların təminatı, habelə analara və uşaqlara qayğı, sağalmanın, profilaktikanın və əmək qabiliyyətinin bərpasının mühüm vasitəsi kimi tibbi xidmət və müalicə ilə bağlı sosial-iqtisadi tədbirlərin məcmusu» aiddir (24, 34). Sosial təminatın geniş konsepsiyasının nümayəndələri (V.S.Andreyev, T.V.İvankina, M.İ.Polupanov, K.S.Batıqin, R.İ.İvanova, V.A.Tarasova, T.M. Kuzmina və s.) həmin anlayışa vətəndaşların tələbatlarının ekvivalentsiz olaraq, dövlət və ictimai mənbələr hesabına, onların əmək fəaliyyətinin nəticəsindən birbaşa asılı olmayaraq təmin edilməsinə yönəlmiş bütün sosial iqtisadi tədbirləri (12, 29; 22, 9), o cümlədən tibbi yardım və müalicəni (V.S.Andreyev) (3, 10), sanatoriya-kurort müalicəsi ilə təminatı (K.S.Batıqin) (6, 14), pulsuz orta, orta ixtisas və ali təhsil almağı (T.M. Kuzmina) (16, 128) və s. aid edirlər.

Müvafiq olaraq sosial-iqtisadi kateqoriya kimi sosial təminatla bağlı təsəvvürlər həm də sosial təminat hüququ ilə tənzimlənən münasibətlərin dairəsi ilə müəyyən olunur. Geniş yanaşmanın tərəfdarları sosial təminat üzrə münasibətlərə ictimai istehlak fondlarından nemətlərin və xidmətlərin dövlət tərəfindən müəyyən edilmiş şərtlərlə əvəzsiz təqdim edilməsi ilə bağlı bütün münasibətləri aid edirlər. Bu halda sosial təminat hüququ ictimai istehlak

fondlarının bölüşdürülməsi üzrə münasibətləri tənzim edən hüquq sahəsi kimi müəyyən olunurdu (12, 25). Bu yanaşma çox cəlbedici idi, çünki hüquq sahəsinin predmetinin hədlərini bir qədər geniş olsa da, lakin dəqiqliklə müəyyən edir və qanunvericiliyin sistemləşdirilməsinə imkan yaradırdı. Bununla belə təcrübədə sosial təminatla bağlı daha məhdud elmi təsəvvürlər üstünlük qazandı. Göstərilən mövqe müstəqillik əldə etmiş respublikamızda sosial təminat hüququ ilə bağlı yazılmış əsərlərdə öz əksini tapdı. Burada indiyə qədər sosial təminat hüququnun predmetinə əhaliyə səlahiyyətli orqanlar tərəfindən sosial sığorta və sosial təminat qaydasında pul ödəmələrinin, tibbi və dərman yardımının, sosial xidmətlərin, qanunvericilikdə nəzərdə tutulmuş norma və qaydalar üzrə güzəştlərin təqdim edilməsi yolu ilə ümumi daxili məhsulun bir hissəsinin bölüşdürülməsi üzrə münasibətlərin, habelə vətəndaşların sosial təminata olan konstitusion hüquqlarının müdafiə və bərpa edilməsi ilə bağlı münasibətlərin daxil edilməsi ənənəsi saxlanılmaqdadır (26, 73; 14, 9).

Lakin məlumdur ki, sosial təminat sahəsində münasibətlərin dairəsi yuxarıda göstərilənlərlə məhdudlaşmır. Bu sahədə ən azı üç qrup ictimai münasibətlər yaranır: 1) sosial təminata yönələn vəsaitlərin formalaşması üzrə münasibətlər; 2) bu vəsaitlərin və bütün sosial təminat sisteminin idarə olunması üzrə vəsaitlər; 3) bu məqsədlə dövlət büdcəsinə və sosial fondlara toplanmış vəsaitlər hesabına pensiyaların, müavinətlərin, güzəştlərin və xidmətlərin təmin edilməsi üzrə bölüşdürücü münasibətlər (13, 89; 9, 47). Birinci qrup münasibətlər öz təbiətinə görə maliyyə hüququ, ikinci qrup münasibətlər inzibati hüququ xarakter daşıyır və yalnız üçüncü qrup münasibətlər müstəqil hüquq sahəsi kimi sosial təminat hüququnun predmetini təşkil edir.

Bu qrup münasibətlərin fərqli təbiətini inkar etmək düzgün deyildir. Lakin onların müxtəlif hüquq sahələri çərçivəsində ayrıca, uzlaşmamış şəkildə tənzimlənməsinin aşkar çatışmazlıqlarını da qeyd etməmək olmaz. Belə ki, əslində bu münasibətlər sıx surətdə qarşılıqlı əlaqədədirlər.

Uzun müddət ərzində bölüşdürmə məqsədi ilə vəsaitlərin toplanması üzrə münasibətlərdən təcrid olunmuş şəkildə nəzərdən keçirilən sosial təminat üzrə bölüşdürücü münasibətlərin müstəqil hüquq sahəsi olan sosial təminat hüququnun predmetini təşkil etməsi ilə bağlı mülahizə kifayət qədər inandırıcı şəkildə əsaslandırılırdı və həmin dövr üçün düzgün yanaşma idi. Sovet dövründə vəsaitlərin formalaşdırılması və sosial təminat üzrə vəsaitlərin idarə olunması üzrə münasibətlər həqiqətən də nisbətən müstəqil şəkildə tənzimlənirdi: vətəndaşlar qanunvericilik səviyyəsində təsbit edilmiş irəli gələn əsaslar üzrə təminatın müxtəlif növlərinə mütləq hüquqlara malik idilər. Sosial təminat üçün nəzərdə tutulmuş pul vəsaitlərinin toplanması və idarə olunması qaydası vətəndaşların hüquqlarına heç bir təsir göstərmirdi. Müasir dövrdə isə vəziyyət fərqlidir. Pensiya islahatları vətəndaşların əmək pensiyalarının sığorta və yığım hissələrinə olan hüquqlarını onları vəsaitlərinin toplanmasının nəticəsindən və toplanmış vəsaitlərin idarə olunması qaydasından birbaşa asılı etmişdir. Sosial sığorta vəsaitlərinin toplanması sisteminin dəyişməsi, sosial

təminat sahəsində yalnız bir büdcədənkənar dövlət fondun – Azərbaycan Respublikası Dövlət Sosial Müdafiə Fondunun yaradılması müxtəlif sığorta haqlarının vahid məcburi dövlət sosial sığorta haqqı ilə əvəz olunması heç də müsbət istiqamətdə dəyişikliyə səbəb olmadı. DSMF-nin vəsaitləri hesabına müavinətlərin və digər ödəmələrin təmin edilməsi üzrə münasibətlərdə dəyişikliklərə gətirib çıxarmışdır. Əmək qabiliyyətinin müvəqqəti itirilməsinə, hamiləliyə və doğuşa görə müavinətlərin məbləği müəyyən məbləğlə məhdudlaşmış, sığorta olunan şəxslər tərəfindən sanatoriya-kurort müalicəsi üçün yollayışların əldə edilməsi imkanı müəyyən dərəcədə azalmışdır. Hazırda o, hər il qəbul olunan DSMF-nin büdcəsi haqqında qanunda bu məqsədlə nəzərdə tutulmuş vəsaitin məbləğindən birbaşa asılıdır. Fərdi sahibkarların sadələşdirilmiş vergitutma sisteminə keçməsi və onlar məcburi dövlət sosial sığorta haqqı ödəməkdən azad edilməsə də, belə sahibkarların və onların yanında işləyən muzdlu işçilərin əmək qabiliyyətini müvəqqəti itirməyə görə müavinətlərin ödənilməsi qaydasında müəyyən dəyişikliklər baş vermişdir.

Pensiya islahatları nəticəsində sosial təminat sferasına mülki hüquq münasibətləri də daxil oldu. Pensiya sığortası sistemi fəal şəkildə yenidən qurulur, ona icbari mülki-hüquqi sığorta üçün xarakterik olan elementlər daha dərindən sirayət edir. Onlar yalnız sığorta vəsaitlərinin toplanması üzrə deyil, həm də bu vəsaitlərin bölüşdürülməsi üzrə münasibətlərə nüfuz edir. Bunun təzahürü kimi pensiyaların yığım hissəsinin toplanması və bölüşdürülməsi qaydası haqqında normalar çıxış edir. Əgər gələcəkdə vətəndaş öz pensiya yığımını qeyri-dövlət pensiya fonduna verərsə əqd bağlanır ki, bu da mahiyyətcə mülki-hüquqi xarakter daşıyacaqdır. Bunun əsasında yerləşdirilmiş kapitalın gəliri ilə bağlı bütün risklər onun özünün üzərinə düşəcəkdir. Bu zaman yaranan münasibətlər əmlak münasibətləri kimi mülki-hüquqi xarakter kəsb etsə də, eyni zamanda sosial təminat münasibətləri kimi qalmaqda davam edəcəkdir. Tədqiqatçı alim S.P.Mavrinin belə bir mülahizəsi maraq doğurur. O, göstərir ki, bu gün hüququn kvazimüstəqil sahələrə bölünməsi aktual deyildir, çünki onun həlli hüquq yaradıcılığının və hüquq tətbiqinin səmərəliliyinə heç bir praktiki təsir göstərmir. Obyektiv hüququn konkret hissələrə bölünməsinin əsasını isə cəmiyyətin həyatının hər hansı sahəsində münasibətlərin özünəməxsus şəkildə tənzimlənməsi zərurətinin yaranması təşkil edir (18, 212).

Sosial təminat hüququ tarixən inzibati və əmək hüququndan törəmişdir. Lakin belə ayrılma həmin hüquq sahələri arasında möhkəm səddin və ya uçurumun olmasını ifadə etmir. Sosial təminat hüququnun sistemində bir sıra qarışıq sahələrarası institutlar qalmaqdadır. Onlardan ən mühümlərindən biri məcburi dövlət sosial sığorta institutudur. Sosial sığorta üzrə münasibətlərin kompleks xarakter daşıması fikri hüquq ədəbiyyatında dəfələrlə qeyd olunmuşdur (17, 195; 5, 57; 25, 156; 19, 35-42).

Sosial xidmət institutu da sahələrarası institutdur. Həmin institutda inzibati-hüquqi, sosial-hüquqi və mülki-hüquqi münasibətlər kompleks şəkildə, ayrılmaz vəhdətdə mövcuddur. Bundan başqa, göstərilən instituta əlillərə pul-

suz mənzil verilməsi üzrə münasibətlər də daxildir. Bu münasibətlər həm mənzil hüququnun, həm sosial təminat hüququnun predmetinə aid edilə bilər.

Sosial sığorta stajı institutu da sahələrarası xarakter daşıyır, onun normaları həm sosial təminat hüququna, həm də əmək hüququna aiddir. Sosial təminat hüquq normaları ilə yaşa görə əmək pensiyasına və pensiya təminatına olan hüquqların, habelə bu pensiyaların və əmək qabiliyyətinin müvəqqəti itirilməsinə görə müavinətlərin məbləğinin müəyyən edilməsi üçün staj məsələləri tənzim olunur. Əmək hüquq normaları ilə ayrı kateqoriya işçilər üçün məzuniyyət hüququ müəyyən edilərkən, əmək haqqına əlavələr hesablanarkən stajın hesablanması və nəzərə alınması qaydaları tənzim olunur. Müəyyən stajın olması ayrı-ayrı vəzifələrin tutulması, elmi və xüsusi dərəcələrin alınması hüququna təsir göstərir. Məsələn, dövlət qulluğu stajı haqqında normalar eyni zamanda həm inzibati hüquqa, həm əmək hüququna, həm də sosial təminat hüququna aid edilə bilər. İnzibati hüquq dövlət qulluğu vəzifəsinin tutulması üçün ixtisas tələblərini müəyyən etdiyinə, əmək hüququ xidmət illərinə görə əmək haqqına əlavələrin məbləğini müəyyən etdiyinə, sosial təminat hüququ isə dövlət qulluqçuları üçün xidmət illəri nəzərə alınmaqla pensiya verildiyinə görə aid edilir.

Qeyd etmək lazımdır ki, inzibati hüquq və sosial təminat hüququ da qonşu sahələr kimi fəaliyyət göstərirlər. Sosial təminat hüququnun predmetinə ənənəvi olaraq sığorta olunan vətəndaşlara pensiya və müavinətlərin ödənilməsi üzrə bütün münasibətlər aid edilir. Bu zaman hərbi qulluqçulara və onlara bərabər tutulan şəxslərə əmək pensiyalarının ödənilməsi üzrə münasibətlərin də bu sahənin predmetinə daxil olması ilə bağlı müddəanın çoxdan və möhkəm surətdə öz təsdiqini tapmasını da nəzərə almaq lazımdır. Həmin kateqoriya vətəndaşlara məcburi dövlət sosial sığortası sistemi üzrə müavinətlərin ödənilməsi ilə bağlı münasibətlər sosial təminat hüququnun predmetinə daxil edilmir, hərçənd hərbi qulluqçuların və onlara bərabər tutulan şəxslərin məcburi dövlət sosial sığortası öz məqsədlərinə, vəzifələrinə və həyata keçirilmə metodlarına görə sosial sığortadan demək olar ki, heç nə ilə fərqlənmir. Belə sığorta sistemi üzrə sığorta olunan şəxslərə edilən ödəmələr sosial müavinətlərin bütün əlamətlərinə cavab verir, bu zaman sığorta subyektləri arasında yaranan münasibətlər isə sosial təminat hüququnun predmetinə aid edilə bilər. Qeyd etmək lazımdır ki, bu, onları inzibati hüququn təsir sferasından çıxarmır.

Mülki-hüquqi elementlərin sosial sığortaya nüfuz etməsi, qarışıq sığorta əsaslarına keçid, sosial təminat üzrə bölüşdürücü münasibətlərin buna qədər mövcud olan vəsaitlərin toplanması və idarə olunması üzrə münasibətlərdən asılılığının güclənməsi sosial təminat hüququnu yalnız bölüşdürücü münasibətləri tənzim edən müstəqil hüquq sahəsi kimi xarakterizə edən fikirləri və bu yanaşmanın dəyişməz qalmasına yönələn bütün səyləri mənasız edir. Göstərilən hüquq sahəsinin inkişaf dialektikasına əsaslanmaqla, onun kompleks xarakterini qəbul etmək, kompleks hüquq sahəsi kimi əvvəlcə sistemləşdirilməsi, sonra isə məcəlləşdirilməsi vəzifəsini irəli sürmək lazımdır.

Lakin hesab edirik ki, heç olmazsa müasir dövrdə və yaxın gələcəkdə bu kompleks sahə sosial hüquq kimi deyil, sosial təminat hüququ kimi xarakterizə olunmalıdır (11, 59), çünki respublikamızın hüquq sistemində belə obyektiv mövcud olan hüquqi kateqoriya hələ formalaşmamışdır. Sosial hüquq yalnız bütün hüquq sahələrindən, bu və ya digər şəkildə insanın sosial hüquqlarını tənzim edən norma və institutlardan ibarət nizamsız sistemdir. «Sosial hüquq» termininin meydana çıxmasına «sosial xartiya», «sosial məcəllə» terminologiyasına uyğun gələn beynəlxalq hüquqi aktlar (10, 196) səbəb olmuşdur. Bütün bu aktlarda yalnız sosial təminat sahəsində hüquqlardan deyil, həm də əmək, mənzil sahəsində hüquqlardan söhbət gedir. «Sosial hüquq» söz birləşməsinin yayılmasına əvvəllər mövcud olan «sosial iş» ixtisası üzrə tələbələrin hazırlanmasının dövlət standartı və bundan irəli gələn sosial işçilər üçün kompleks tədris fənninin hazırlanması zərurəti də köməklik göstərmişdir. Fikrimizcə, müasir dövrdə sosial hüquq konstruksiyasından yalnız tədris fənni kimi istifadə etmək olar. Bəzi sosial təminat hüququna dair dərslik və ya dərs vəsaitində sosial təminat hüququndan başqa əmək, mülki, mənzil və hətta cinayət hüququna dair fəsillər görmək olar (21, 23). Bu sahələr onların ayrı-ayrı institutları kimi məcmu halında kompleks sahə əmələ gətirmirlər. Onların kompleks sahənin formalaşdıran xüsusi predmet (müxtəlif cinsli olsa da qarşılıqlı əlaqədə olan, kompleks vəhdət təşkil edən münasibətlər), spesifik sahəvi prinsiplər, eyni səviyyəli digər hüquq sahələri ilə qarşılıqlı təsirdə olmaq qabiliyyəti, qanunvericiliyin ayrılması kimi xüsusiyyətləri yoxdur.

Sosial təminat hüququ üzrə dərslik müəlliflərinin bəzən bu sahənin predmeti kimi nəzərdən keçirdikləri kompleks münasibətlər hüquqi tənzimetmə məqsədləri üçün zərərsiz şəkildə asanlıqla hissələrə ayrılır: deməli, onların bir sahə çərçivəsində birləşməsinə zərurət yoxdur. Həmin münasibətlər hüquqi tənzimetmənin keyfiyyətinə əhəmiyyətli zərər yetirmədən kompleks vəhdət təşkil etmirlər. Burada müəyyən məqsədlərlə süni şəkildə formalaşdırılmış sistemdən söhbət gedir. Belə formalaşdırılma konkret elmi və tədris məqsədləri üçün mümkündür, lakin mövcud hüquq sisteminin obyektiv şəkildə formalaşmış həlqəsini təzahür etdirmir (20, 248-254). Buna görə də digər hüquq sahələrinin məcəlləşdirilmiş aktlarından xeyli sayda normaları və institutları daxil etmədən onu məcəlləşdirmək qeyri-mümkündür.

Göstərmək lazımdır ki, sosial təminat hüququnun kompleks hüquq sahəsi istiqamətində inkişafı ilə bağlı obyektiv tendensiya bir çox müəlliflər tərəfindən qeyd edilmişdir (26, 74-75; 15, 5; 25, 156-163). Lakin hesab olunur ki, burada məsələ özünün ilkin başlanğıcındadır. Məsələn, M.L.Zaxarov və E.Q.Tuçkova yazır: «sosial təminat sahəsində müxtəlif xarakterli münasibətləri tənzim edən hüquq normalarının birləşməsi artıq indidən nəzərə çarpır, lakin bu hüquq normalarının məcmusunun keyfiyyətcə yeni və daha yüksək səviyyədə inkişaf etmiş hüquq sisteminə transformasiya etməsi və sosial təminat sahəsində bütün münasibətlərin hüquqi tənzimlənməsini əhatə etməsi üçün hələ çox vaxt keçməlidir» (11, 59). Burada sosial təminat sahəsində mü-

nasibətləri tənzim edən hüquq normalarının birləşməsi prosesi düzgün ifadə olunur, lakin kompleks sahənin yaranması gələcəklə əlaqələndirilir, əslində isə reallıqda mövcud olan hüquq sisteminin öyrənilməsi və təhlili belə nəticəyə gəlməyə imkan verir ki, həmin kompleks hüquq sahəsi artıq indidən fəal formalaşma mərhələsindədir. Belə formalaşmanın yekun mərhələsi kimi sosial təminat sahəsində kompleks münasibətləri tənzim edən məcəlləşdirilmiş aktın işlənib hazırlanması və qəbul edilməsi çıxış edə bilər. Çünki məhz, pozitiv hüquq sistemində müstəqil məcəlləşdirilmiş akt kimi obyektivləşən intellektual-iradəvi vəhdətin olması formalaşmış kompleks hüquq sahəsindən danışmağa imkan verir (1, 14).

Beləliklə, sosial təminat hüququ müstəqil hüquq sahəsi kimi tanınsa da, müasir dövrdə cəmiyyətdə təminat sahəsində ictimai münasibətlərin inkişafı ilə əlaqədar hələ də özünün formalaşması prosesindədir.

**ƏDƏBİYYAT**


1. Алексеев С.С. Структура советского права. М.: Юридическая литература, 1975, 264 с.
2. Андреев В.С. Вопросы советского права социального обеспечения // Проблемы трудового права и права социального обеспечения. М., 1975, с.27-35
3. Андреев В.С. Право социального обеспечения в СССР: Учебник. М.: Юридическая литература, 1974, 304 с.
4. Ачаркан В.А. Государственные пенсии. М.: Юридическая литература, 1967, 258 с.
5. Батыгин К.С. Правоотношения по социальному страхованию // Советское государство и право, 1972, № 11, с. 56-57
6. Батыгин К.С. Развитие основных форм социального обеспечения в свете новой Конституции СССР // Советское государство и право. 1979, № 10, с. 14-21
7. Qasımov A.M. Əmək hüququ: Dərslik. Bakı: Adiloğlu, 2007, 560 s.
8. Гущин И.В. Советское право социального обеспечения: вопросы теории. Минск: Наука и техника, 1982, 176 с.
9. Доброхотова Е.Н., Филиппова М.В., Янтукаева М.А. Советское право социального обеспечения. СПб.: Наука, 1982, 276 с.
10. Европейская социальная хартия // Социальные права человека. Документы и материалы Совета Европы. Ч.1. М.: Проспект, 1996, 468 с.
11. Захаров М.Л., Тучкова Э.Г. Право социального обеспечения России. М.: Волтер Клувер, 2005, 570 с.
12. Иванкина Т.В. Проблемы правового регулирования распределения общественных фондов потребления: Автореф. дисс. ... доктор юрид. наук. М., 1986, 54 с.
13. Иванова Р.И., Тарасова В.А. Предмет и метод советского права социального обеспечения. М.: МГУ, 1983, 168 с.
14. İsmayılov İ.İ., Mürşüdov R.İ. Sosial təminat hüququ və onun tətbiqi problemləri. Bakı: Qanun, 2001, 224 s.
15. Ковалевский С.М. Проблемы регулирования обязательного социального страхования от несчастных случаев на производстве: Автореф. дисс. … канд. юрид. наук. СПб., 2003, 25 с.
16. Кузьмина Т.М. Советское право социального обеспечения. Саратов: Саратовский ун-т, 1982, 254 с.
17. Лушникова М.В. Государство, работодатели и работники: история и практика правового механизма социального партнерства (сравнительно-правовое исследование). Ярославль, 1997, 312 с.
18. Маврин С.П. О роли метода правового регулирования в структурировании и развитии позитивного права // Правоведение, 2003, № 1, с. 212-219

19. Мустафаев А.М. Обязательное государственное социальное страхование // Ганун, 2008, № 2, с.35-42
20. Никифорова Н.Н. Место права социального обеспечения в системе российского права // Российский ежегодник трудового права, 2005, № 1, с. 548-554
21. Никонов Д.А., Стремоухов А.В., Федоров А.П. Социальное право: Учебное пособие. СПб.: Наука, 2002, 218 с.
22. Полупанов М.И. Теоретические проблемы общей части науки советского права социального обеспечения: Автореф. дис.…канд.юрид.наук. М., 1969, 24 с.
23. Сенников Н.М. Профсоюзное право: Курс лекций. СПб., 2003, 212 с.
24. Советское право социального обеспечения: Учебник / Под ред. А.Д.Зайкина. М.: МУ, 1982, 264 с.
25. Федорова М.Ю. Теоретические проблемы правового регулирования социального страхования. Омск: Омский Университет, 2003, 246 с.
26. Əliyev M.N. Sosial təminat hüququ: Dərslik. Bakı: Adiloğlu, 2007, 464 s.

## ТЕОРЕТИЧЕСКИЕ АСПЕКТЫ ОПРЕДЕЛЕНИЯ МЕСТА ПРАВА СОЦИАЛЬНОГО ОБЕСПЕЧЕНИЯ В ПРАВОВОЙ СИСТЕМЕ НА СОВРЕМЕННОМ ЭТАПЕ

**Ф.М.АЛИЕВА**

**РЕЗЮМЕ**

В статье тщательно исследуются теоретические аспекты науки права социального обеспечения как один из отраслей правовой науки на современном этапе. Определяется круг социальных явлений составляющих предмет науки права социального обеспечения, схожие и отличительные черты с другими отраслями правовой науки (конституционное право, трудовое право, административное право, финансовое право и др.). Так же, анализируя общие и специальные части системы науки права социального права, подчеркивается необходимость кодификации законодательства по социальному обеспечению.

**Ключевые слова:** предмет права социального обеспечения, социальное право, социальный страховой стаж, обязательное государственное социальное страхование, круг общественных отношений

## THEORETICAL ASPECTS OF THE DETERMINATION OF THE POSITION OF SOCIAL PROVISION LAW IN THE LEGAL SYSTEM IN MODERN STAGE

**F.M.ALİYEVA**

**SUMMARY**

Theoretical aspects of the science of the social provision law are carefully researched in the article as one of the branches of the legal science in modern stage. The circle of the social phenomena forming the subject of the science of Social Provision Law, its similar and distinctive features with other branches of the legal science (the constitutional law, labor law, administrative law, financial law and others) are defined.Besides, analysing general and special parts of the system of Social Provision Law, the urgency of codifications in the legislation on social security is earmarked.

**Key wordc:** the subject of the law of social security, social law, social insurance experience, obligatory governmental social insurance, social